**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№350/1** **24 noyabr 2022-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**2023-cü il üzrə iş planı barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə, “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına (2021-2030-cu illər)” və Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 10.9-cu “2023-cü il üçün Auditorlar Palatasının iş planının hazırlanması” bəndinə uyğun olaraq hazırlanmış Auditorlar Palatasının 2023-cü il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, on gün müddətində Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının əsasında Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2023-cü il üzrə iş planının layihəsini hazırlayıb təqdim etsin.
3. Məsul icraçılara tapşırılsın ki, təsdiq edilmiş iş planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
4. Palata sədrinin müşaviri F.Qarayevə və Maliyyə və texniki təminat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, iki ay müddətində bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının mətnlərinin ingilis və rus dillərinə tərcümə edilməsi təmin edilsin.
5. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**